AZƏR-ÇEX Cəmiyyəti
Qeydiyyat nömrəsi: 27039439
Voronezska 19/564
Praha 10, Çexiya Respublikası

AZER-ČECH
SDRUŽENÍ ÁZERBAJDŽÁNCŮ V ČR
www.diaspora.cz

Sdružení AZER-CECH o.s.
ICO: 27039439
Voroněžská 19/564
Praha 10, Česká republika

Praqa, 09.02.2010

*Mətbuat Xidməti*

# ÇEXİYADA XOCALI KÜÇƏSİ AÇILACAQ

Lidiçe Şəhər İcra Başçısı cənab Yosef Klima bugün AZƏR-ÇEX Cəmiyyətinin Sədri, Elşən Nəzərova qəbul etdikləri tarixi qərarı şəxsən özü təqdim etmişdir. Qərarda göstərilir ki, Çexiyanın Lidiçe şəhərindəki küçələrin birinə XOCALI adı veriləcək və hər iki şəhər qardaşlaşacaqdır. Bu təşəbbüsü ilk dəfə AZƏR-ÇEX Cəmiyyəti 2007-ci ildə irəli sürmüşdür və bu 3 il müddətində Lidiçe şəhər İcra Hakimiyyəti və orda yerləşən Xatirə Kompleksi ilə məqsədyönlü və mütəmadi əməkdaşlıq aparmışdır.

Qeyd edək ki, Lidiçe qəsəbəsi 1942-ci ildə Alman faşistləri tərəfindən yerlə yeksan edilmiş, əhalisi terora məruz qalmışdır. Xocalı və Lidiçe faciələrinin oxşarlığı məhz ona səbəb olmuşdur ki, təşkilatımızın təşəbbüsü ilə Lidiçe Muzeyi və Xatirə Kompleksində 26 Fevral 2007-ci ildə Xocalı faciəsinin 15 illiyinə həsr olunmuş silsilə tədbirlər və foto-rəsm əsərlərinin 3 ay davam edən sərgisi keçirilmişdir.
Xocalı faciəsinin 18-ci ildnönümü ərəfəsində əldə etdiyimiz bu nailiyyətə görə fərəh hissi duyuruq və Azərbaycan xalqını təbrik edirik!

